UOT 94

ŞƏFA ƏBDÜRRƏHİMOVA
Azərbaycan Dillər Universiteti
Qərb ölkələri üzrə regionşünaslıq kafedrası, baş müəllim
chafouniya85@yahoo.fr

FRANSADA MÜTLƏQİYYƏTİN FORMALAŞMASI VƏ DİNİ MÜNAQİŞƏLƏR (1515–1589)

DOI: https://doi.org/10.36719/2708-065X/112/15-20

Məqalə XVI əsrdə Fransanın siyasi, dini, iqtisadi və mədəni həyatında baş vermiş mühüm prosesləri araşdırır. Məqalədə I Fransua dövründə mütləqiyyətin inkişafı və Fransanın V Karl ilə apardığı müharibələr, eləcə də ölkədəki iqtisadi canlanma və ticarət mərkəzlərinin yüksəlişi təhlil olunur. İntibah dövründə ədəbiyyatın canlanması və humanizmin yayılması, həmçinin Reformasiya hərəkatının Fransada ortaya çıxması və hügenotların fəaliyyətinə diqqət edilir. II Henri dövründə Habsburqlarla bağlanmış sülh və Fransanın Avropadakı mövqeyi, II Fransua və IX Karlın hakimiyyəti dövründə baş vermiş Müqəddəs Varfolomey qırğını, eləcə də III Henri və Katolik Liqası ilə mübarizə kimi hadisələr siyasi və dini qarşıdurmaları əks etdirir. Məqalə XVI əsr Fransasında hakimiyyətin güclənməsi, dini münaqişələr, sosial-iqtisadi inkişaf və mədəni yüksəlişin bir-biri ilə qarşılıqlı təsirini göstərir, ölkənin tarixi inkişaf xəttini ümumi kontekstdə təqdim edir.

Açar sözlər: XVI əsr Fransası, I Fransua, mütləqiyyət, İntibah, humanizm, Reformasiya, II Henri, Müqəddəs Varfolomey qırğını, III Henri, Katolik Liqası.

Giriş. XVI əsr Fransanın tarixi üçün həm mürəkkəb, həm də dönüş nöqtəsi olan bir dövr kimi qəbul edilir. Bu dövrdə Fransa krallığında siyasi, dini, iqtisadi və mədəni sahələrdə əhəmiyyətli dəyişikliklər baş vermişdir. Xüsusilə, I Fransua dövründə mütləqiyyətin inkişafı və krallığın Avropadakı mövqeyinin möhkəmləndirilməsi, V Karl ilə aparılan müharibələr və xarici siyasətdə həyata keçirilən strateji addımlar Fransanın daxili və xarici siyasətinə ciddi təsir göstərmişdir. I Fransua dövründə aparılan modernləşdirmə islahatları, iqtisadiyyatın inkişafına yönəlmiş addımlar, manufakturaların və sənaye mərkəzlərinin açılması, eləcə də ticarətin genişlənməsi ölkədə iqtisadi canlanmanı təmin etmişdir. Bu dövrdə Fransanın şəhərləri, xüsusilə Lion və Marsel kimi ticarət mərkəzləri Avropada mühüm rol oynamış, ölkənin vilayətləri arasında mal mübadiləsi və sənaye inkişafı sürətlənmişdir.

XVI əsrin mədəni həyatı da eyni dərəcədə diqqətəlayiqdir. İntibah dövrünün təsiri ilə Fransada ədəbiyyat canlanmış, humanizm ideyaları yayılmış, fərdi düşüncə, təhsil və elmi fəaliyyət ön plana çıxmışdır. Ədəbiyyatın inkişafı yalnız mədəni sahədə deyil, həm də cəmiyyətin düşüncə tərzində dəyişikliklərə səbəb olmuşdur. Eyni zamanda, Reformasiya hərəkatının yayılması və hügenotların fəallığı Fransada dini qarşıdurmaların və siyasi gərginliyin artmasına gətirib çıxarmışdır. Bu dövrdə baş verən dini və siyasi hadisələr, xüsusilə Müqəddəs Varfolomey qırğını, həm daxili siyasətə, həm də sosial strukturun formalaşmasına böyük təsir göstərmişdir.

II Henri dövründə Habsburqlarla bağlanmış sülh Fransanın Avropadakı mövqeyini gücləndirsə də, daxildəki dini qarşıdurmalar tam həllini tapmamışdır. II Fransua və IX Karlın hakimiyyəti dövründə baş vermiş Müqəddəs Varfolomey qırğını isə ölkədəki katolik və protestant ziddiyyətlərini açıq şəkildə ortaya çıxarmışdır. III Henri ilə Katolik Liqası arasındakı mübarizə, həmçinin kral hakimiyyətinin gücləndirilməsi və siyasi stabilliyin təmin olunması yönündə atılan addımlar Fransa tarixində mühüm rol oynamışdır.

Məqalədə XVI əsr Fransasının siyasi, dini, iqtisadi və mədəni sahələrdə baş verən əsas hadisələri ətraflı təhlil olunaraq, ölkənin tarixi inkişaf xətti ümumi şəkildə təqdim edilir. Məqalə həm krallığın hakimiyyət strategiyalarını, həm də dini və mədəni transformasiyaların qarşılıqlı təsirini göstərməyi məqsəd qoyur. XVI əsr Fransası, həmçinin gələcək monarxiya dövrləri üçün əsas təməl yaratmış, mütləqiyyətin formalaşması, dini qarşıdurmalar və mədəni yüksəlişlərlə zəngin bir tarix mərhə-

ləsi kimi yadda qalmışdır. Bu baxımdan, XVI əsrin hadisələri yalnız həmin dövrün deyil, həm də Fransanın gələcək siyasi və mədəni inkişafının əsasını təşkil edir.

Beləliklə, məqalədə təqdim olunan məlumatlar XVI əsrdə Fransanın həm daxili, həm də xarici siyasətində baş verən dəyişiklikləri, sosial-iqtisadi inkişafı və mədəni həyatın yüksəlişini daha geniş və sistemli şəkildə anlamağa imkan verir.

I Fransua və V Karla qarşı müharibə. 1515-ci ildə I Fransua taxta çıxır. O, Valua-Orlean-Anqulem qolunun nümayəndəsi idi. XII Lüdoviqin bu yaxın qohumu Milan torpaqlarını geri almaq niyyətində idi. Bu məqsədlə, o, böyük bir ordu toplayır və 1515-ci il sentyabrın 15-də Marinyan ərazisində italyan-isveçrə ordularını ağır məğlubiyyətə uğradır. Elə həmin ildə I Fransua papa X Leonla konkordat və eyni zamanda isveçrəlilərlə daimi müqavilə imzalayır. Bu müqavilə monarxiyanın sonuna qədər qüvvədə qalır, müqaviləyə əsasən isveçrəlilər Fransa kralını ordu ilə təmin etməli idi [5, s.204-205].

1519-cu ildə Avstriya imperatoru ölür. İki monarx arasında hakimiyyət uğrunda mübarizə başlayır: bunlardan biri I Fransua, digəri isə mərhum imperatorun nəvəsi İspaniya kralı idi. Bankir Fuqjerlər ailəsinin maddi dəstəyi sayəsində İspaniya kralı Müqəddəs Roman-German İmperiyasının başçısı seçilir. O, özünü V Karl elan edir. Yeni hökmdarın gücü I Fransuanı narahat edir və İngiltərə kralı VIII Henri ilə müttəfiqlik əlaqələri qurmağa hədər yerə vaxtı gedir. Belə ki, onun İngiltərə kralı ilə Qızıl Drap düşərgəsindəki görüşü uğursuzluqla nəticələnir.

V Karl və Fransa arasındakı hərbi toqquşmalar 1523-cü ildə başlayır. İki il sonra Pavi döyüşünün ağır nəticələri olur: I Fransua həbs olunur, İspaniyaya aparılır və İtaliyadan əl çəkməyə məcbur olur. Tezliklə azad olunan kral mübarizəni davam etdirir və kilsənin etirazlarına baxmayaraq alman protestant şahzadələri və Osmanlı sultanı Süleyman Qanuni ilə müttəfiqlik əlaqələri yaradır. I Fransua yeni müharibə nəticəsində 1547-ci ildə vəfat edir.

I Fransua və mütləqiyyətin inkişafı (1515-1547). I Fransua təbəələrini öz hakimiyyətinə pərəstiş etməyə təhrik edirdi. Belə ki, o "Əlahəzrət" titulunu təsis etmişdi. Kral parlamentarilərə hüquqi və siyasi etiraz aktı olan remonstrasiya (etiraz ifadə etmək) hüququndan istifadə etməyi qadağan edir və Baş Ştatların toplanmasını dayandırır. O, hakimiyyəti qanunlar tərtib edən və məhkəmə sistemini idarə edən kanslerin köməyi ilə idarə etməyə başlayır. Əyalətlərdə hökmdardan asılı olan komissarlar kral fərmanlarını icra etməklə vəzifələndirilir, qubernatorlar isə hərbi səlahiyyətləri yerinə yetirirlər.

Bundan başqa, kral kilsə üzərində də hakimiyyətini tətbiq edir: 1516-cı il konkordatından etibarən arxiyepiskopları, yepiskopları, abbatları və baş keşişləri özü təyin edir. Ville-Kotere sazişi ilə monarx vətəndaşlıq qeydiyyatı yaradır, belə ki, o, məhəllə keşişlərinə doğum və ölüm qeydiyyatının aparılmasını əmr edir və vətəndaşlıq aktlarının tərtibində latın dilinin yerinə fransız dilini tətbiq edir. Bu saziş müasir fransız vətəndaşlıq sisteminin və hüquqi sənəd prosedurlarının əsası sayılır [2, s. 99].

I Fransua istəyir ki, ictimai həyatı və monarxiyanın fəaliyyəti onun qüdrətini əks etdirəcək şəkildə olsun: o, 10 000–15 000 nəfərdən ibarət (kral ailəsinin üzvləri, onların xidmətçiləri, hərbi heyət, Məsləhət Şurasının üzvləri, rəssamlar və yazıçılar, pensiya və ya vəzifə almağa gəlmiş zadəganlar) zəngin saray mühitində yaşayan ilk Fransa kralı idi.

Öz xərclərini ödəmək üçün (müharibələrin xərcləri, bayramlar və qəsrlər, Braziliyaya ekspedisiyalar, eyni zamanda Jak Kartiyenin Kanadaya ekspedisiyası) I Fransua kral xəzinəsinin idarə olunmasını təşkil edir, torpaq və duz vergisini artırır və ən əsası, məmur vəzifələrini satır. Bu vəzifələrin sahiblərinin bəziləri sonradan zadəgan titulu əldə edə bilirdilər. Orta əsr və Yeni dövr Fransasında kralın dövlət xəzinəsinə daxil olan əsas vergilərdən biri duz vergisi idi. Bu, duzun istehsalı və satışı üzərində qoyulan məcburi vergi idi.

Fransa və İntibah dövrü (XVI əsr). Marinyan döyüşündən sonra əsl mesenat rolunu oynayan I Fransua italyan Leonardo Da Vinçini Fransaya yaşamağa dəvət edir. Həm rəssam, həm də mühəndis kimi fəaliyyət göstərən bu dahi sənətkar gələrkən özü ilə məşhur Cokonda əsərini də gətirir [2, s.100]. Digər italyan sənətkarlar da krallığa kralın yaxud böyük senyorların sifarişi ilə fransız fəhlələrin yaratdığı möhtəşəm tikililərə rəhbərlik etmək üçün gəlirlər.

Da Vinçinin layihələrindən olan möhtəşəm Şambor qəsrindən başqa Azey-lö-Rido kimi digər gözəl tikililər Luara vadisini bəzəyir. Eyni zamanda qədim tikililər yeniləri ilə əvəz edilir: Ambuaz, Blua və Şönonso. 1525-1526-cı illərdə Madriddəki həbs həyatından sonra Fransaya qayıdan hökmdar

İl-dö-Fransa səyahət edir. Köhnə Fontenöblo sarayı da elə bu vaxtlarda böyüyür və gözəlləşir. Bununla belə, sənət əsərləri ilə zənginləşdirilmiş və bağlarla bəzədilmiş saray Fontenöblo məktəbinin baniləri Primatis və Rosso tərəfindən stukkolar (süni mərmər) və freskalarla işlənmişdir.

Parisdə Luvrun transformasiyası prosesi başlayır, lakin Kvadrat meydanın bir tərəfi II Henrinin hakimiyyəti dövründə Piyer Lesko və Jan Qujon tərəfindən ucaldılır. Adı çəkilən sənətkarlar Məsumlar Çeşməsini də (Fontaine des Innocents) dizayn edirlər, eyni vaxtda Jermən Pilon isə Filiber Delorm tərəfindən inşa edilmiş Anet sarayını öz heykəlləri ilə bəzəyir [3, s.92]. Fransız üslubunun yaranmasının əsasını qoyan Fransua Klue portretlərinə xalçaçıların, qravyorların, zərgər ustalarının, minaçıların və musiqiçilərin əsərləri də əlavə olunur; bütün bunlar krallığı Renessansın böyük mərkəzlərindən birinə çevirir.

Ədəbiyyatın canlanması və humanizmin yaranması (XVI əsr). Şablona çevrilmiş tədris prosesini dirçəltmək üçün müəllimlər dərslərinə yenidən antik mətnlərin tədrisini daxil etdilər; bu addım, 1453-cü ildə Konstantinopolun türklər tərəfindən fəthindən sonra İtaliyada qədim mətnlərin yenidən aşkara çıxarılmasını xatırladır. Hollandiyalı Erasm kimi, Fransada da həm ədəbiyyat və incəsənətə, həm də tətbiqi elmlərə və texnologiyaya maraq göstərən tanınmış humanistlər — Giyom Bude, Henri Estien və Lefevr d'Etapl — önə çıxırdılar.

Bacısı Marqerit d'Anqulemdən ilham alan I Fransua 1530-cu ildə Parisdə Fransa Kollecini təsis etdi [2, s.102]. Coğrafiya, yunan dili, ivrit dili, riyaziyyat və fəlsəfə kimi yeni fənlərin tədrisinə həsr olunan bu təhsil müəssisəsi kral xəzinəsi tərəfindən maliyyələşdirilir və köhnə Sorbondan tam müstəqil fəaliyyət göstərirdi.

1450-ci ildən etibarən icad edilən və alman Qutenberq tərəfindən təkmilləşdirilən çap texnologiyası sürətlə yayılırdı. Bu yenilik əvvəllər yalnız əllə köçürülən kitabların daha ucuz və çoxsaylı nüsxələrinin hazırlanmasına imkan verirdi. Bu, yeni ideyaların və mətnlərin yayılmasına təkan verir; xüsusilə də çox məhsuldar yazıçı Fransua Rable (Qarqantua, Pantaqruel), eləcə də şairlər Klement Maro (Klementinin yeniyetmə çağı), Joaşim dü Belley (Fransız dilinin mühafizəsi və zənginləşdirilməsi) və Pyer dö Ronsar (Kassandranın məhəbbətləri) kimi müəlliflərin əsərlərinin yayılmasını sürətləndirirdi. Sonuncu hər iki müəllif Pleyada ədəbi məktəbinin nümayəndələri idi, bu məktəbin görkəmli simalarından biri də "Oçerklər"in müəllifi filosof Mişel de Monten olmuşdur.

XVI əsrdə Reformasiya hərəkatının ortaya çıxması. XVI əsrdə ideyaların yenilənməsi həmçinin dini sahədə də özünü göstərir. Belə ki, katolik kilsəsi ciddi böhranla üz-üzə qalır. Papa özünü dini lider kimi deyil, daha çox dövlət başçısı kimi aparır və şahzadə həyatı sürürdü. Öz resurslarını artırmaq məqsədilə o, öz günahlarını almaq istəyən möminlərə indulgensiyalar satırdı. Adətən kəm savad keşişlər vəzifələrini yerinə yetirməkdə maraqsız olurdular.

Almaniyada keşiş Lüter kilsənin zəngin həyat tərzi və ruhanilərin rüşvətxorluğu əleyhinə qalxır. O belə hesab edirdi ki, bütün xristianlar heç bir vasitəçi olmadan da Allaha müraciət edə bilər. O, sadəliklə xarakterizə olunan dini xidmətə qayıtmağı müdafiə edir və "xilas yalnız imanla, yaxşı əməllərlə deyil" deyə təbliğ edirdi. 1519-cu ildən Lüterin ideyaları Fransada yayılmağa başlayır. I Fransua əvvəlcə bu tənqidlərə kifayət qədər tolerantlıq göstərir.

1534-cü ildə Plakat hadisəsi baş verir. Belə ki, protestantlar şəhərlərin divarlarına və ictimai yerlərinə anti-katolik yazılar (plakatlar) yapışdırırdılar. Yepiskopları, papanı və messanı tənqid edən bu plakatlar Fransanın çoxsaylı şəhərlərində görünməyə başlayır. Ambuazda kral otağının qapısına yapışıdırılan plakat kralın səbrini daşıran son damla olur [5, s.220-221]. I Fransua monarxiyaya vurulmuş bu zərbəyə sərt reaksiya verir və dəhşətli repressiyalar başladır.

1541-ci ildə İsveçrəyə qaçan fransız Jan Kalvin Lüterin (Xristian dini İnstitutu) ideyalarını genişləndirir və təkmilləşdirir və çoxsaylı protestant keşişlər yetişdirir. 1559-cu ildə o, Fransadakı reformedilmiş kilsələrin ilk toplantısını keçirir və bu toplantı krallıqdakı protestantların doktrinasını birləşdirir və vahidləşdirir. Zadəganların əksər üzvləri dinlərini dəyişib, protestantlığı qəbul edirlər (Burbonlar, admiral Colinyi) [2, s.102].

II Henri və Habsburqlarla sülh (1547–1559). I Fransuanın oğlu II Henri 1547-ci ildə taxta çıxır. Fransanı Habsburqlarla qarşı-qarşıya qoyan müharibə 1552-ci ildə yenidən başlayır [4, s.734]. Çünki imperator V Karl (Charles Quint) qərbdən krallığa hücuma hazırlaşırdı. II Henri hücumu dəf

edir və ordularını alman protestant knyazları ilə razılaşma əsasında Metz, Tul və Verden yepiskopluqlarını ələ keçirmək üçün göndərir.

Çox zəiflədiyindən hakimiyyətdən imtina edən V Karl 1556-cı ildə taxtdan çəkilir. Onun nəhəng imperiyası iki yerə bölünür: qardaşı I Ferdinand Avstriya və alman ərazilərini ələ keçirir və müqəddəs Roma imperatoru olur; oğlu II Filipə isə İspaniya və onun koloniyaları, həmçinin İtaliya torpaqları, Niderland və Franş-Konte miras qalır [5, s.229-230].

İspaniya yenidən Fransa ilə mübarizəyə başlayır. Fransız ordusu 1557-ci ildə Sent-Kanten döyüşündə ağır məğlubiyyətə uğrayır. Lakin ispan ordusunun xəzinəsi tükənmişdi və onlar Parisə yürüş edə bilmədilər. 1559-cu ildə Fransa və İspaniya krallarının hər ikisi ölkələrinin maliyyə çətinlikləri ilə üzləşdiyini görüb Kato-Kambrezi müqaviləsini imzalayırlar. Fransa İtaliyada ələ keçirdiyi torpaqlardan imtina etməli olur [2, s.108].

Barışığın şərəfinə iki şahzadənin evliliyinin keçirilməsi nəzərdə tutulurdu. Parisdə dəbdəbəli şənliklər təşkil edildi. II Henri bu turnirlərdən birində iştirak etmək istəyirdi. Lakin onun rəqibinin nizəsi sındı və kral ağır şəkildə yaralandı. Məşhur cərrah Ambruaz Parenin müdaxiləsinə baxmayaraq kral bir neçə gün sonra öldü. Onun oğlu dofin Fransua taxta çıxdı.

II Fransua, IX Karl və Müqəddəs Varfolomey qırğını (1559–1574). Cəmi on beş yaşında olan II Fransua Şotlandiya kraliçası Maria Stüartla evlənmişdi. Kraliça ana Katrin de Mediçi regent kimi idarəçiliyi üzərinə götürür. Lakin hakimiyyət güclü Gizlər ailəsinin əlində idi; onlar protestantların təşkil etdiyi bir sui-qəsddən (Ambuaz sui-qəsdi) öz xeyirlərinə istifadə edirlər və protestantları basqı altına salmaq üçün repressiyaya başlayırlar.

II Fransua yalnız altı ay kral olduqdan sonra ölür. Onun qardaşı IX Karl hələ uşaq idi. Kraliça ana Katrin de Mediçi hakimiyyəti humanist kansler Mişel de L'Ospital ilə birlikdə idarə etməyə başlayır [2, s.109]. Lakin Gizlər ailəsi tərəfindən törədilən qırğınlar protestantların üsyana qalxmasına səbəb olur. Bu hadisə ölkəni parçalayacaq din müharibələrinin başlanğıcını qoyur və böyük zadəganları kral hakimiyyətinə qarşı çıxmağa sövq edir.

Protestantların saraya qayıtmasına şərait yaradan Sent-Jermen sazişindən sonra onların rəhbərlərindən biri olan Kolinyi kralın yanında böyük nüfuz qazanır. Katrin de Mediçi və Henri de Giz 1572-ci il avqustun 23-də onu öldürməyə cəhd edirlər [4, s.735]. Lakin sui-qəsd uğursuz olur və kral açıq şəkildə araşdırma aparılmasını tələb edir. Özünü qorumaq üçün katolik birliyi protestantların hamısını aradan qaldırmaqdan başqa yol görmür.

Avqustun 24-ü, sübh çağı, Müqəddəs Varfolomey günü Kolinyi öldürülür. Bu qətl qırğının ilk qığılcımı olur. Parisə kralın bacısı Margerit de Valuanın Navarra kralı reformist Henri (sonrakı IV Henri) ilə nikahına gəlmiş protestant zadəganlar qətlə yetirilirlər. Eləcə də minlərlə hügenotlar Parisdə və sonrakı günlərdə vilayətlərdə öldürülürlər. Vicdan əzabı ilə sarsılan IX Karl 1574-cü ildə ölür [4, s.735].

III Henri və Katolik Liqası ilə mübarizə (1574–1589). Yeni kral III Henri əvvəlki iki monarxın qardaşı idi. 1576-cı ildən etibarən o, protestant birliyinə güzəştlər edir: Boliö sazişi reformistlərə demək olar, katoliklərinkinə bərabər ibadət azadlığı verir və onlara bir sıra təminat məntəqələri (silahlı qüvvələri olan möhkəmləndirilmiş şəhərlər) təqdim edirdi [4, s.735]. Lakin katoliklər buna hiddətlənir və hersoq Henri de Giz ətrafında Liqanın daxilində birləşirlər. Bir il sonra kral hügenotalara etdiyi güzəştləri ləğv edir.

1584-cü ildə Alanson hersoqu, III Henrinin kiçik qardaşı ölür [2, s.110]. Onun övladı olmadığı üçün Fransanın yeganə qanuni varisi kral ailəsinin uzaq bir qolu olan Navarra kralı Henri sayılır. Lakin katoliklər onu qəbul edə bilməzdilər. Liqa öz ordusunu yaradır və İspaniya kralı II Filip ilə ittifaq bağlayır.

1585-ci ildə III Henri Navarra kralına qarşı hücuma məcbur olur. Lakin faktiki olaraq onun hakimiyyəti çox zəifləyir, çünki Giz hersoqu Henrinin nüfuzu günü-gündən artırdı. Fransa kralı Parisdən qaçmalı olur. O, vəziyyəti güc tətbiq etməklə dəyişmək qərarına gəlir: 1588-ci ilin dekabrında, Blua qəsrində Giz hersoqu Henrini öldürtdürür və Liqanın məsul şəxslərinin həbsini əmr edir [3, s.95].

Bu xəbər yayılan kimi Paris üsyana qalxır. Ordusu və pulu olmayan III Henri Navarra kralına yaxınlaşır. Onlar birlikdə qiyamların tüğyan etdiyi paytaxtı mühasirəyə alırlar. Lakin 1589-cu il

avqustun 2-də, fanatik bir rahib Jak Kleman III Henrini Sen-Kluada bıçaqlayaraq öldürür. Ölümündən əvvəl III Henri Navarra kralı Henrini özünün qanuni varisi elan edir [4, s.736].

Nəticə. XVI əsr Fransa üçün həm siyasi, həm dini, həm də mədəni sahələrdə əhəmiyyətli dəyişikliklərin baş verdiyi bir dövr olmuşdur. I Fransua dövründə mütləqiyyətin güclənməsi, Reformasiya və hügenot hərəkatları, II Henrinin Habsburqlarla sülhü, II Fransua və IX Karlın dövründəki Müqəddəs Varfolomey qırğını, eləcə də III Henri və Katolik Liqası ilə mübarizə Fransanın siyasi və dini tarixinə dərin iz buraxmışdır. Eyni zamanda İntibahın təsiri ilə ədəbiyyatın canlanması və humanizm ideyalarının yayılması ölkənin mədəni inkişafını sürətləndirmişdir. Beləliklə, XVI əsr Fransada həm hakimiyyətin güclənməsi, həm də dini və mədəni transformasiyaların bir-birinə qarşılıqlı təsir etdiyi mürəkkəb və həlledici dövr kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. Abbasbəyli, A. N., və Yusifzadə, S.Z. Beynəlxalq Münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik. - Bakı: BDU nəşriyyatı, - 2009. – 309 s.
2. Mathieu, M. Mon histoire de France. – Paris : Hachette Livre, - 1996. – 316 p.
3. Monnerie, A. La France aux cent visages. Livre de l'étudiant. - Paris : Les éditions Didier, - 1996. – 224 p.
4. Mustafazadə, T. Ümumi tarix (Ən qədim zamanlardan XVIII əsrin sonunadək). [2 cilddə]. – Bakı: İqtisad Universiteti Nəşriyyatı, - c. 1- 2009. – 1152 s.
5. Orucov, T. Ümumdünya tarixi. Orta əsrlər tarixi. [3 cilddə]. – Bakı: Adiloğlu, - c.2. –2011. –384 s.

ШАФА АБДУРРАХИМОВА
Старший преподаватель кафедры регионоведения западных стран Азербайджанского университета языков

ФОРМИРОВАНИЕ АБСОЛЮТИЗМА И РЕЛИГИОЗНЫЕ КОНФЛИКТЫ В ФРАНЦИИ (1515–1589)

Статья исследует основные политические, религиозные, экономические и культурные процессы, происходившие во Франции в XVI веке. В ней анализируется развитие абсолютизма при Франциске I и войны Франции с Карлом V, а также экономическое оживление и рост торговых центров в стране. Особое внимание уделяется расцвету литературы и распространению идей гуманизма в эпоху Ренессанса, а также возникновению Реформационного движения во Франции и деятельности гугенотов. В статье также рассматривается мир, заключенный с Габсбургами во время правления Генриха II, положение Франции в Европе, резня святого Варфоломея при Франциске II и Карле IX, а также конфликты между Генрихом III и Католической лигой, что подчеркивает политическую и религиозную напряженность того периода.

Исследование показывает, как укрепление королевской власти, религиозные конфликты, социально-экономическое развитие и культурный прогресс были взаимосвязаны в XVI веке во Франции, предоставляя комплексный обзор исторического развития страны.

Ключевые слова: Франция XVI века, Франциск I, абсолютизм, Ренессанс, гуманизм, Реформация, Генрих II, резня святого Варфоломея, Генрих III, Католическая лига.

SHAFA ABDURRAHIMOVA
Azerbaijan University of Language,
Senior lecturer of the Department of Regional Studies of Western Countries

FORMATION OF ABSOLUTISM AND RELIGIOUS CONFLICTS IN FRANCE (1515–1589)

The article examines the major political, religious, economic, and cultural processes that took place in France during the 16th century. It analyzes the development of absolutism under Francis I and France's wars with Charles V, as well as the economic revival and the rise of trade centers in the

country. The study also focuses on the flourishing of literature and the spread of humanism during the Renaissance, along with the emergence of the Reformation movement in France and the activities of the Huguenots. The article further explores the peace concluded with the Habsburgs during the reign of Henry II and France's position in Europe, the St. Bartholomew's Massacre under Francis II and Charles IX, and the conflicts between Henry III and the Catholic League, highlighting the political and religious tensions of the period.

The study demonstrates how the strengthening of royal authority, religious conflicts, socio-economic development, and cultural advancement were interconnected in 16th-century France, providing a comprehensive overview of the country's historical trajectory.

Keywords: 16th-century France, Francis I, absolutism, Renaissance, humanism, Reformation, Henry II, St. Bartholomew's Massacre, Henry III, Catholic League.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 21 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Sevdagül Əliyeva, t.ü.f.d. Məmmədağa Baxışov.